*Ü.Mikayılov. İsa Muğanna fenomeninə fərqli münasibət*
*// Əlyazmalar yanmır. 2021, №2(13), s.55-63.*

UOT: 82.

**Ülvi Mikayılov**
*Bakı Dövlət Universiteti*
*Bakı ş. Akademik Zahid Xəlilov küç. 23*
*e-mail: ulviaydin.m@gmail.com*

# İSA MUĞANNA FENOMENİNƏ FƏRQLİ MÜNASİBƏT

**Xülasə**

*Məqalədə İsa Muğannanın şəxsiyyətinə və yaradıcılığına olan münasibət tədqiqatın əsas obyekti olaraq götürülmüşdü. Məlum olduğu kimi İsa Muğannanın yaradıcılığı "İdeala"qədərki və "İdeal"la başlayan dövr olmaqla iki mərhələyə bölünür. Yazıçının "İdeal"a qədərki dövr yaradıcılığı ədəbi tənqidin haqlı-haqsız hücumlarına məruz qalmış, "İdeal"la başlayan dövr yaradıcılığına isə ədəbi tənqid susmaqla kifayətlənmişdi.*

*Tədqiqatda o da göstərilir ki, "İdeal" əsərinin yazılması ilə Muğannanın yaradıcılığında OdƏr dili və SafAğ elmi geniş yer tutduğundan yazıçıya məxsus bəşəri ideyalar sərgiləndiyindən tədqiqatçılar Muğanna yaradıcılığını bir o qədər dəyərləndirməmişdir. Bununla bərabər bir qisim ziyalı və alimlər İsa Muğannanın yaradıcılığına laqeyid münasibət göstərməyərək ədibin düşüncə və fikirlərini yüksək dəyərləndirmişdir. Buna misal olaraq Xalq şairləri Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Xalq yazıçıları Anar, Elçin, Mövlud Süleymanlı, Akademiklər Tofiq Hacıyev, Nizami Cəfərov və digərlərini göstərmək olar.*

*Tədqiqatın əhəmiyyətliliyi ondadır ki, İsa Muğannanın keçdiyi yaradıcılıq yolu uzun müddət araşdırılmadığından ədibin əsərlərində yer alan fəlsəfi (əhəmiyyətli olan) düşüncələri demək olar ki, ədəbiyyatşünaslıq elmində əks olunmamışdır. Bu baxımdan İsa Muğannanın şəxsiyyəti, Şəxsiyyəti ilə vəhdət təşkil edən yaradıcılığı məqalənin əsas tədqiqat obyekti olmaqla yazıçının əsərlərində və verdiyi müsahibələrdə olan düşüncələrinə istinad edilərək araşdırmalar aparılmışdır.*

*Nəticə olaraq qeyd edilməlidir ki, yazıçının həyatı bütövlükdə ədəbiyyata bağlı olmuş, onun yazdığı əsərlərdə milli dəyərlər, xalqın taleyi, bəşəri ideyalar geniş mənada əks olunmuşdur. İsa Muğanna ədəbiyyatla bütövləşmiş fəlsəfi düşüncə sahibi, bir fenomendir.*

***Açar sözlər:*** *İsa Muğanna, şəxsiyyət, bəşəri düşüncə, xəlqilik, bədii nəsr, fenomen*

## Giriş

Zaman elə bir məfhumdur ki, onu saxlamaq, ləngitmək və ya geriyə qaytarmaq heç bir insanın gücü daxilində deyil. Ən doğru addım zamanı zamanında dəyərləndirməkdir. Vaxtın sürətli getməsi inkişafın sürətinin göstəricisidir. Elm, təhsil və iqtisadi sahələrdə olduğu kimi ədəbiyyat sahəsində də sürətli inkişaf aydın hiss olunur. Vaxt nə qədər sürətli getsə də, ötən dövrlərdə müsbət işləriylə tarixə düşən şəxsləri zaman və zamanın yetişdirdiyi insanlar yaşadır.

Azərbaycanın ədəbiyyat tarixinə nəzər yetirdikdə görmək olur ki, XII əsrdə yaşayıb yaradıcılıq yolu keçmiş Xaqani Şirvani, Nizami Gəncəvi, XIV-XV əsrlərdə yaradıcılıq yolu keçmiş İmadəddin Nəsiminin şəxsiyyəti və düşüncələrinin məhsulu olan bədii yaradıcılığı aktuallığını itirmir, zaman ötdükcə şaxələnir və yeni tədqiqat obyektlərinə çevrilir.

XX əsr Azərbaycan ədəbiyyatına baxdıqda görmək olur ki, bu dönəm böyük ədəbi şəxsiyyətlərlə zəngindir. XX əsr Azərbaycan ədəbiyyatını milli düşüncə ədəbiyyatı və ya milli ədəbiyyatın intibah dövrü kimi xarakterizə etmək olar. Bu dönəmdə yazılan ədəbi nümunələrdə kökə bağlılıq, xalqın adət-ənənələri azərbaycançılıq ideologiyası, vətənə sevgi, türk birliyi mövzuları prioritet istiqamətdir. XX əsrin əvvəlindən başlayan bu missiya bu günün özündə də ədəbiyyatımızda davam etdirilir.

Milli düşüncəyə əsərlərində geniş meydan verən sənətkarlardan biri XX əsr ədəbi-fəlsəfi düşüncəsinin nümayəndələrindən olan, Xalq yazıçısı İsa (Muğanna) Hüseynovdur. Ədəbiyyatda seçkin şəxsiyyətlər yaradıcılığı ilə bütövləşir. Belə şəxsiyyətlərin yaradıcılığını ayrılıqda öyrənmək əhəmiyyətli olmur. Bu baxımdan İsa Muğanna fenomeni də öz yaradıcılığıyla tam halında bütövləşmişdir. O da qeyd edilməlidir ki, Muğannanın yaradıcılığı şəxsiyyətini tamlaşdırdığı qədər onun bioqrafiyası bədii nəsrinə sirayət etmişdir. Ədib öz taleyini, xarakterini, yaşadığı mühiti və görüb eşitdiklərini qələmə almışdır.

**İsa Muğanna şəxsiyyətinə münasibət.** İsa Muğanna Ağstafa rayonunun Muğanlı kəndində dünyaya göz açmışdır. Ədib ömrünün 17 ilini kənddə yaşasa da əsərlərində kənd həyatı, kənd camaatının güzəranı daha geniş təsvir olunmuşdur. Muğannanın ədəbiyyata gəlişi "Anadil ötən yerdə" adlı hekayəsi ilə olmuşdur. Müəllif müsahibələrində bildirirdi ki, ondan öncə də əsərlər yazmış, həmin ədəbi nümunələr çap edilməmişdir.

"Səkkizinci sinifdən yazmağa başlamışam. O zaman "Bəstəkar", "İnqilab" adlı hekayələr və "Kağız cərrahı" adlı roman yazmışdım. Sonralar harda itə-bata düşdülər, bilmirəm. Bakıya gələndən sonra isə "Anadil ötən yerdə" adlı oçerkimi yazdım və bu mənim ilk mətbu yazımdır" [5].

Müəllifin "Arx" hekayəsi tələbə olduğu illərdə (1947) çap olunsa da, geniş oxucu kütləsinə təqdim edilməmiş, əsər sovet rejiminin tələblərinə uyğunlaşdırıldığına görə çox hissəsi dəyişdirilmişdir. Müəllif müsahibələrinin birində qeyd edirdi ki, "İnsan ana bətnində olanda onun taleyi artıq müəyyənləşir. Təzə doğulan körpənin qədim dövrdən başlayaraq gələn irsiyyəti bağlara məlumdur" [3]. Muğannanın da qeyd etdiyi kimi onun da taleyinə böyük ədəbiyyatın nümayəndəsi olmaq elə ana bətnində yazılmışdır. Ədib 1945-ci ildə tibb institutuna daxil olsa da öz istəyi ilə institutu həmin il tərk edir. Növbəti il öz arzusu ilə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olur. Digər bir maraqlı məqam ondadır ki, Muğanna "Kağız cərrahı" romanını qələmə alsa da, əsər çap olunmur. Müəllifin dediyi kimi it-bata düşür. Görünür Muğannanın taleyində nə həkim olmaq, nə də bu sahə ilə bağlı yazdığı ədəbi nümunəni çap etdirmək yox imiş. İsa Muğannanın taleyi bütövlükdə ədəbiyyatla bağlanmışdır. Yazıçı daha sonra təhsilini Maksim Qorki adına ədəbiyyat institutunda davam etdirmişdir.

Ədib "Anadil ötən yerdə" hekayəsi ilə özü üçün bir sıra istiqamətləri müəyyən etdi. Birinci istiqamət o idi ki, müəllif bu əsərdən başlayaraq avtobioqrafik obraz yaradılışına geniş yer verirdi. Digər bir istiqamət isə konfiliktsizlik ədəbiyyatının çərçivələrindən çox zaman çıxırdı. Sovet rejimi dönəmində konfliktsizlik ədəbiyyatı hakim mövqedə idi. Yazılan əsərlər müsbət tendensiyada cərəyan etməli, ədəbi nümunələrin sonluğu müsbət hadisələrlə bitməli idi. Muğanna gördüklərini qələmə aldığından real hadisələri təxəyyülü ilə vəhdətdə bədiiləşdirərək ədəbiyyat nümunəsinə çevirirdi. Bu səbəbdən də ədib 50-60 cı illərdə haqlı-haqsız ədəbi tənqidin hədəfinə çevrilirdi. Yazıçı fəth etdiyi zirvəyə qələminin və

düşüncəsinin gücü ilə gəlib çıxmaq üçün uzun müddət ona qarşı olanlarla mübarizə aparmış, öz ideyalarından dönməmişdir. Yazdığı əsərlər zaman-zaman cəmiyyətdə rezonans doğurmağa başlamışdır.

Əllinci illərdən başlayaraq Muğannanın "Bizim qızlar", "Dan ulduzu", "Doğma və yad adamlar", "Yanar ürək", "Saz", "Tütək səsi", "Kollu Koxa" və digər əsərləri ardıcıl nəşr olundu. Ədib sonradan "Bizim qızlar" povestindən tam, "Doğma və yad adamlar", "Dan ulduzu" əsərlərindən qismən imtina etmişdir. Sonuncu iki əsərin üzərində işləyərək altı cildliyində nəşr etdirmişdir. Yazıçı bu əsərlərdən imtina etməsinin səbəblərini belə izah edirdi: Əsərləri bəsit ədəbi nümunə kimi dəyərləndirir və sovet rejiminin sıxıntıları şəraitində yazıldığına görə bu ədəbi nümunələri yaradıcılığında dolğun hesab etmirdi. Yazıçının yazdığı ədəbi nümunələr bir qisim ədəbiyyatşünas və o dönəmdə yüksək vəzifəli şəxslər tərəfindən tənqid olunsa da, bu əsərlər Muğanna yaradıcılığında mühüm yerə sahib olmaqdadır. Müəllifin əsərlərini tənqid edənlər olsa da, təqdir edənlər də az deyildi. Xalq yazıçısı Anar qeyd edirdi ki, "milli nəsrdə, -hər halda mən öz payıma bunu etiraf edirəm, örnək iki yazarımız – Mirzə Cəlil Məmmədquluzadə və İsa Hüseynov idi. Məhz 60-cı illərdə Mirzə Cəlil irsi sovet ideologiyasının dar qəliblərindən çıxarılır, vulqar-sosioloji yozumların çərçivəsindən azad edilirdi" [1].

Anarın da qeyd etdiyi kimi Muğannanın yaradıcılığında yazıçı sərbəstliyi və duşuncənin sərhədsizliyi aydın hiss edilirdi. Bu yazıçı keyfiyyətləri şəxsiyyətin xarakterindən irəli gələn məsələ idi. Müəllifin xarakteri əsərlərindən onu oxucusuna da yaxşı tanıdırdı. İsa Muğanna ədəbi fəaliyyətə 40-cı illərin sonu, 50-ci illərin əvvəlindən başlasa da, 60-cı illərdə yazmağa başlayan nəsillər üçün bir növ ədəbi məktəb rolunu oynamışdır. 60-cı illərdə ədəbi fəaliyyətə başlayan Xalq yazıçıları Anar, Elçin, Mövlud Süleymanlı öz çıxışlarında bunu dəfələrlə qeyd etmişdir. Muğannanın 80 illik yubleyi ərəfəsində Mövlud Süleymanlı yazırdı: - "Açığını deyim ki, İsa müəllim kimi öz yazılarına, öz yaratdıqlarına oxşayan az yazıçı olar. O zaman da bunu düşünürdüm, indi də bu fikirdəyəm. İsa Muğanna öz mühitinin ağrısını yaşayan yazıçıdı. Ona görə də onun əsərləri doğulduğu mühiti izah etmək, tanıtmaq gücündədi" [11, s.3].

Muğanna cəmiyyətdə baş verən haqsızlıqları, əyintiləri əsərlərində geniş işıqlandırdığından rejimin tərəfdarları onu nə qədər tənqid etsə də oxucu daha çox təqdir edir, Muğanna şəxsiyyətinə olan inam və yaradıcılığına maraq artırdı. Zaman göstərdi ki, Muğanna böyük tənqid atəşinə tutulsa da, onun qələmi sınmadı, əksinə bu qələm sahibinə daha çox rəğbət və şöhrət qazandırdı. Azərbaycanın İstiqlal şairi Xəlil Rza UluTürk Muğannanın "Kollu Koxa" povestini oxuduqdan sonra təsirlənib Muğannaya məktub yazır. Məktubun sonunda şair ziyalılarla görüşündən məqamları əks etdirərək yazıçıya olan münasibəti göstərir. "Əziz İsa! Məktubumdakı fikirlərin tələsik və səliqəsiz deyilməsindən bəlkə də gileylənmək olar. Bu gün mən öz fikrimi ziyalılarımız ilə bölüşəndə sizin barənizdə maraqlı rəylər eşitdim. "İsa Hüseynov Azərbaycanın birinci yazıçısıdır". (Tofiq Mahmud) ...

"Mən İsanın povestlərini həmişə bir nəfəsə oxuyuram. Bunları yarımçıq qoymaq mümkün deyil. Xüsusilə "Saz" povesti" nə qədər kamildir. (Sabir) ...

Sizin povestin ən gözəl təbliğatçılarından biri bizim sevimli şairimiz Bəxtiyar Vahabzadədir. ..." [13]

Göründüyü kimi X.R.Ulutürkün, B.Vahabzadənin digər bir qisim yazıçı və şairlərin də Muğanna yaradıcılığına diqqət və marağı böyük idi, çünki bu şəxsiyyətləri bir əqidə, məslək, amal birləşdirirdi. Muğanna və digər adını qeyd etdiyimiz qələm adamları milli düşüncənin, həqiqətin, ədalətin carçısı idi.

İsa Muğannanın həyat tarixçəsini vərəqlədikdə sənətkarın heç də asan həyat tərzi keçirmədiyi diqqətə çarpır. Uşaqlıq illərində atası böyük vətən müharibəsində iştirak etmiş,

Muğanna gəncliyini yaşadığı dönəmdə atası dünyasını dəyişmiş, ailənin bütün ağırlığı onun çiyinləri üzərinə düşmüşdür. Ədibin şəxsi həyatında və yazıçılıq fəaliyyətində çətinliklər çox olsa da, İsa Muğannanın şəxsiyyət olaraq taleyindən, xarakterindən, düşüncəsindən irəli gələn qürurverici məqamlar da az deyil. Ədibin bioqrafiyasından məlumdur ki, Muğannanın həyat yoldaşı Firuzə xanıma sonsuz istəyi, sədaqəti, məhəbbəti olmuşdur. Onların iyirmi il övladları olmasa da, yazıçı ümidini itirməmiş, Tanrıya olan inamı, həyat yoldaşına sadiqliyi onu yazmağa və yaşamağa sövq etmişdir. Firuzə xanım da ömrünün sonuna qədər İsa Muğannaya diqqət və qayğısını əsirgəməmiş, bununla bərabər əsərlərinin ilk oxucusu olmuşdur. İsa Muğannanın xəlqi və bəşəri düşüncələri hadisələrə həssas yanaşması, onun səhhətində özünü biruzə vermiş, yazıçı uzun müddət ürəyi ilə bağlı xəstəlikdən əziyyət çəkmişdir. Ədibin qızı ədəbiyyatşünas alim Sevinc Muğanna atası ilə bağlı xatirələrində yazır. "Muğannamız nə az, nə çox düz 9 dəqiqə gözünü yumdu. Muğanna göydə sahibimiz, yerdə isə yaxınlarının istisi, məhəbbəti, həyat yoldaşı Firuzə xanımın sonsuz qayğısı, məhrəmliyi sayəsində xalqına qovuşdu" [8].

Muğanna xəstə olmasına baxmayaraq, ədəbi fəaliyyətindən qalmayıb ömrünün sonuna qədər yazıb yaratmışdır. Sənətkar ona qarşı olan haqsızlıqları olduğu kimi, yaxşılıqları da yadından çıxarmırdı. Ədib xatirələrində bu haqda geniş yazmışdır. Muğanna yazırdı ki, ədəbiyyata ilk qədəm qoyduğu vaxtlarda onu haqsız tənqidlərdən qorumağa çalışan yazıçı Mehdi Hüseyn və Xalq yazıçısı Mirzə İbrahimov olmuşdur. 70-ci illərdən başlayaraq ümummilli lider Heydər Əliyev İsa Muğannanın yaradıcılığına və özünə xüsusi önəm vermişdir. Özünün də dediyi kimi Heydər Əliyevin böyük qayğısı yazıçının 70-ci illərdən sonrakı bütün yaradıcılığında sənətkara xüsusi şövq verdi. Heydər Əliyevin xilaskar missiyası nəticəsində Azərbaycan ədəbiyyatı bəşəri ideyalarla zəngin neçə-neçə əsər qazandı.

Fenomen şəxsiyyət hekayə, povest, roman yazsada, ədəbiyyata xidmət etməklə kifayətlənməmiş, eyni zamanda kino yaradıcılığında da sənətkarın mühüm, danılmaz xidmətləri vardır. "İyirmialtılar", "Doktor Nərimanov", "Nəsimi", "Nizami", "Tütək səsi" filmlərinin ssenarilərini qələmə almışdır. "Nəsimi" filminin çəkilməsi ilə şairin düşüncələri ictimaiyyətə geniş şəkildə təqdim olundu. Ədib müsahibələrində qeyd edirdi ki, filmlərin çəkilişi zamanı o bir sıra çətinliklərlə qarşılaşmışdır. "Nəsimi" filminin ssenarisini yazmağı ümummilli lider Heydər Əliyev İsa Muğannaya tapşırmışdır. Yazıçının "Nəsimi" ilə bağlı bilgiləri olmasa da, Ulu öndərin ona göstərdiyi etimadın və yaratdığı şəraitin sayəsində Muğanna "Nəsimi" filminin ssenarisini qələmə aldı. Bu film Muğanna yaradıcılığında xüsusi yer tutdu. Ssenarinin yazılmasından sonra müəllif tarixi fəlsəfi əsər olan "Məhşər" romanını qələmə almışdır. Heydər Əliyevin Muğannaya qayğı və diqqəti yazıçıya xüsusi stimul verdi. "Nəsimi" filmi üçün Moskvadan alınmalı rəyi Muğanna bir günün ərzində alıb geri qayıtmışdır. Ədib müsahibələrində də qeyd edirdi ki, ümummilli lider Heydər Əliyev yazıçıya daim diqqət göstərmiş, onun xilaskarı olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra İsa Muğannanın 70 illik yubleyi münasibəti ilə Heydər Əliyev onu "İstiqlal" ordeni ilə təltif etmişdir. Yazıçının "İstiqlal" ordeninə layiq görülməsi əsərlərində Milli düşüncəyə daha çox yer verməsi ilə bağlıdır.

Ədəbiyyatşünaslığa və İsa Muğannanın oxucusuna məlumdur ki, ədibin yaradıcılığı iki dövrə bölünür. İdeala qədərki dövr, İdealla başlanan dövr. Başqa sözlə İsa Hüseynov yaradıcılığı və İsa Muğanna yaradıcılığı (yazıçının altı cildliyində hər iki dövrdə yazılan əsərlər İsa Muğanna imzası ilə nəşr olunmuşdur). Xalq yazıçısı Anarın da qeyd etdiyi kimi Mirzə Cəlildən sonra İsa Muğannanın əsərlərində də yazıçı düşüncəsinin sərhədsizliyi, milli düşüncənin geniş arena alması daha çox tənqidin hədəfinə məruz qalırdı.

"Məhşər" romanının yazılmasıyla Muğanna şəxsiyyətinə olan münasibət bir qədər də dəyişdi. Yenə də onu tənqid və təqdir edənlər vardı. Tənqid edənlər indi yalnız ədəbiyyatşü-

naslar yox, həmdə tarixçilər idi. Amma bir məqam unudulurdu ki, "Məhşər" romanı tarix deyil. Tarixi fəlsəfi bədii əsərdir. "Məhşər" romanı İsa Muğannanın bədii nəsrində körpü rolunu oynamışdır. Müəllifin "Məhşərə" qədərki əsərlərində xalqın taleyi, güzəranı, cəmiyyətdə olan problemlər ön mövqedə dayanırdı. "Məhşər" romanından başlayaraq milli düşüncənin fonunda xəlqi və bəşəri problemlər qabardılırdı. İsa Muğannanın şəxsiyyəti xarakterinin bütövlüyü ilə "Məhşər" romanında həm avtobioqrafik surət, həm də bir yazıçı obrazı kimi görünürdü. Məlumdur ki, Nəsimi düşüncələrinin və yaradıcılıq bioqrafiyasının yazıçıya böyük təsiri olmuşdur.

**İsa Muğannanın "İdealla" başlayan yaradıcılıq dövrü.** Səksəninci illərdən etibarən İsa Muğanna şəxsiyyəti və yaradıcılığı demək olar ki, ədəbi tənqidin hədəfi deyildir. "İdeal" romanının yazılmasıyla Muğanna dünyasında yeni konsepsiya intişar etdi. Ədib romanda xalqın taleyini bəşəri ideyaların fonunda qələmə aldı. Müəyyən məqamlarda görüb eşitdiklərini romanda fraqmentar olaraq canlandırdı. "Məhşər" yazıldıqdan sonra Muğannanı tənqid edənlər "İdeal"dan sonra sanki susqunluq dövrü yaşayırdı. "İdeal"ın qələmə alınmasından sonra İsa Muğanna:

1. Hüseynov imzasından Muğannaya keçdi
2. Ədib "İdeal"ı Ün eşidərək yazmağa başladı (özünün dediyinə görə)
3. Yazıçının bədii nəsrində ("İdeal"dan başlayaraq) OdƏr dili, SafAğ elmi xüsusi yer tutdu
4. İsa Muğanna müəyyən bir dövr guşənişin olub (təkliyə çəkilib) əsərlər üzərində işlədi. Muğanna yaradıcılığının ədəbi tənqidin və elmi tədqiqatın obyekti olmamasının əsas səbəbi OdƏr dili, SafAğ elminin əsərlərdə geniş yer alması və dərin bəşəri, fəlsəfi, düşüncələrin sərgilənməsidir. Bir qisim tədqiqatçılar Muğanna yaradıcılığının bu dövrünü qəbul etmir, digər bir qisim araşdırmaçılar isə əsərlərin çətinliyindən ehtiyat edib, Muğanna yaradıcılığını bir o qədər tədqiqata cəlb etməmişdir. İsa Muğanna, "Muğanna" imzasını 1986-cı ildən qəbul edib, 28 il bu imza ilə (ömrünün sonunadək) oxucuların görüşünə gəlmişdir. Yazıçının arxivində ona ünvanlanmış məkubda da bu məqam qeyd edilmişdir. "Əziz qardaşım İsa. Səni 60 illiyin və iki yaşın münasibətilə Xalq yazıçısı kimi şərəfli ad almağınla əlaqədar səmimi qəlbdən təbrik edir, can sağlığı yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram. Səni öpürəm. – qardaşın Aslan Aslanov" [2].

Muğannanın "İdeal"la başlayan dövr yaradıcılığına ədəbi tənqid biganə qalsa da, bir neçə alim və ziyalı fikir bildirərək məqalələr yazmışdır. Akademik Tofiq Hacıyev ədibin yaradıcılığı ilə bağlı yazırdı. "İsanın dəhşətli məntiqi var, bu məntiqin içində bir dənə bir zərrə, bir vergülcə istisna tapmazsan. Mən İsanın "İdeal" romanındakı "Qapalı dünya" bəhsini və "Əbədiyyət" romanını oxuyarkən qələm-kağız götürdüm –insan obrazlarını bağlılığını, hadisələrin bir-birinə keçidini, hətta bir dilçi olmağımla etimologiyaların (sözlərin mənşəyi) məntiqini qeydə aldım... Bunların təhlilini apardım. Denən bir dənə ziddiyyət, bir dənə bir-birindən doğmayan fakt detal gördünmü? Yox ki, yox" [6].

Böyük Türkoloq dünya miqyaslı alimin bu fikri İsa Muğannanın yaradıcılığına verdiyi dəyərlə bərabər yazıçının şəxsiyyətinə və düşüncəsinə olan rəğbətdir. Akademik Tofiq Hacıyevin bu qeydləri göstərir ki, Muğannanın 80-ci illərdən başlayaraq yazdığı əsərlərdən xəlqi və bəşəri ideyalar yer alır, eyni zamanda yazıçı OdƏr dilinə üstünlük versə də, ədəbi nümunələr məzmun və məntiqi baxımından nizamlı və səhmanlı şəkildə yazılmışdır. Xalq yazıçısı Anar Muğannanın yaradıcılığına bir qədər fərqli yanaşırdı. Anara görə İsa Hüseynov yaradıcılığı İsa Muğannanın bədii nəsrindən daha öndə dayanırdı. Yazıçı qeyd edirdi ki, "İdeal"dakı rayon və kənd məişətinin dəqiq təsviri, bir-birindən maraqlı, canlı xarakterlər, İsa Hüseynovun qələmindən çıxıb, tarixi fərziyyələrdən ibarət olan, elmi traktat təsiri bağışlayan mətnləri İsa Muğanna yazıb" [1]. Bir məqam xüsusi qeyd edilməlidir ki, "İdeal"da

əhəmiyyətli fikirlər çoxdur və əsərdə bir-birini inkar edən məqamlar görünmür. İsa Muğanna bildirirdi ki, "İdeal"dan öncə də Ün eşitmiş, lakin bu Ünü bir o qədərdə dərk etməmişdir. Muğanna şəxsiyyətini digərlərindən fərqləndirən yalnız Ün eşitməsi deyil, eyni zamanda idrakının və irsiyyətinin də rolu vardır. Yazıçının xatirələrindən məlum olur ki, onların nəsillərində də fəhmli insanlar olmuşdur. Həmin genetik faktor özünü ustad sənətkarın şəxsiyyətində də biruzə vermişdir. Yazıçının əsərlərindən onun xarakterini müəyyən mənada bilmək olur, amma bununla bərabər uzaqgörən düşüncəyə malik yazıçı "Həyatımdan səhifələr" adlı avtobioqrafik yazısını qələmə almışdır. Sənətkar bu yazıda keçdiyi həyat yolunun (taleyinin) müəyyən məqamlarını əks etdirmişdir. Muğannanın bəzi fikirləri cəmiyyətdə bir mənalı qarşılanmır. Ədib müsahibələrinin birində "Ölüm nədir?" sualına belə cavab vermişdir.

"Ölüm yoxdur. İkinci doğuluş var. SafAğ elmi tədris olunsa, ölümlü insanlar ikinci həyatın nə şəkildə başlandığını, həyatın davamını dərk edər" [10]. Ölümsüzlüyə SafAğ elmi konsepsiyasından yanaşan Muğannanın dediyində həqiqət də var ki, müəyyən mənada ölümsüzlük anlayışı mövcuddur. Müsbət əməlləri ilə həyatda iz qoymuş insanlar tarixin yaddaşında əbədi yaşayır. Onlar dünyasını dəyişsə də həmin şəxslərin ideya və fikirləri düşüncə təbliğatçısına çevrilərək belə önəmli şəxsləri dövr davam etdikcə yaşadır. İsa Muğanna cismən dünyasını dəyişsə də onun düşüncələri, yazdığı əsərlər, ailəsi, həmfikirləri onu bu gün də yaşadır. İsa Muğannanın SafAğ elmini təqdir etməsi Ün eşitdiyini deməsi və müəyyən müddətdə özünü cəmiyyətdən təcrid etməsi onun haqqında müxtəlif fikirlər yaratdı. Aydın məsələdir ki, ziyalını, ziyalılar, düşünən və ağıllı insanlar daha yaxşı dərk edir. Əksər insanların görmək istədiyi cəmiyyət var. Bu fərdlərə görə dəyişir. İsa Muğanna da saf, mərhəmətli, ədalətli insan axtarışında idi. Yazıçı düşünürdü ki, dünya düzəlməlidir ki, insan da düzəlsin. Bu səbəbdəndə qələm sahibi problemlərin bəşəri həllini axtarırdı. Yazıçının "İdeal"la başlayan dövr yaradıcılığına aid əsərlərdə SafAğ elmi, OdƏr dili geniş yer alsada, bu ədəbi nümunələrin Muğanna yaradıcılığını dərk etməyə çalışıb və ya qismən dərk edən şəxs üçün həyatı əhəmiyyəti böyükdür. Ümumən İsa Muğannanın bədii nəsri keçmişlə bu günü müqayisə edib nəticə çıxarmaq üçün gərəkli mənbədir. Bu fenomen şəxsiyyət cəsarətli, səmimi, fikirlərini açıq şəkildə obrazların dili ilə oxucusuna çatdırırdı, eyni zamanda gerçək həyatda da düşüncələrini olduğu kimi deməkdən çəkinmirdi. Yazıçının sonuncu müsahibəsində də diqqət çəkən xüsusi məqamlar yer almışdır. 27 mart 2014-cü il tarixində Muğannaya (sonuncu müsahibəsi zamanı) ədəbiyyatşünas alim Şəmil Sadiqin "Vicdan nədir sizin üçün?" sualına ustad belə cavab vermişdir.

- İnsanın bətnində yaşayan, daimi yaşayan, ölməyən, dünyaya baxışını idarə edən bir məfhumdur.

- "Vicdan dinin yarısıdır" deyə bilərikmi?

- Vicdan dinin hamısıdır [9].

Həqiqətən yazıçının dediyi kimi: Vicdan dinin hamısıdır. Vicdanı olmayan bir kəs din haqqında necə düşünə bilər və ya dinin buyurduğu kimi yaşayıb, əməl etməli olduqlarına riayət edər. Vicdanı olan kəsin dini, imanı, mərhəməti, ədaləti ümumən insanlığı olacaq. Bu fikir də bir Muğanna həqiqətidir. Aydın məsələdir ki, İsa Muğannanı tam halında dərk etmək mümkün deyil. Muğannanı tam dərk etmək üçün Muğanna olmaq lazımdır. Ədibin çoxşaxəli biliyi, intellektual səviyyəsi, fəhmi ona sərhədsiz düşünmək imkanı verirdi. Bununla bağlı akademik Nizami Cəfərovun da dəyərli fikirləri vardır. "Sizə yalnız heyran olmaq olar... Sizi yalnız sevmək olar!.. Və sizdə təcəlla edən dərin mənalar, möhtəşəm intellektual hisslər ümmanına dalmaq, sizin miqyaslı idrak dünyanıza qovuşmaq olar"... [4] N.Cəfərovun da qeyd etdiyi kimi İsa Muğannanın düşüncə trayektoriyası fəlsəfi fikirlərlə zəngin idi. "İdeal"dan başlayaraq OdƏr dili SafAğ elmi ilə bağlı bütün məsələlərin əsərlərdə yer alması

onu göstərir ki, yazıçı kainatı yaxşı dərk edirdi. Muğanna hadisələrə yalnız yazıçı kimi yanaşmırdı. Elə yazıçını da fenomenə çevirən əsas səbəblərdən biri bu idi ki, o "Məhşərə" qədər xəlqi düşüncələri sərgilədiyi halda "Məhşərdən" sonra bəşəri ideyalar ön mövqedə dayanmağa başladı, yenə də xəlqilik prinsipləri yazıçının yaradıcılığında tez-tez görünürdü. "İdeal"dan başlayaraq Muğanna xəlqi problemlərə belə bəşəri nöqteyi-nəzərdən yanaşırdı. Cəmiyyətdə olan əyinti və çatışmazlıqların qaynağını bəşəri problem kimi dəyərləndirirdi. Ədib ədalətsiz cəmiyyətdən uzaqlaşmaq üçün müəyyən bir müddət insanların çoxu ilə ünsiyyətini kəsdi. Bu dönəmdə cəmiyyətdə belə bir fikir yarandı ki, Muğanna özünü ideallaşdırır. Əslində isə Muğanna cəmiyyətin haqsızlıqları ilə barışa bilmir, buna görə də insanlardan təcrid olub düşüncələrini kağız üzərinə köçürməyə qərar vermişdir. Geniş dünya görüşü, bilginliyi ilə seçilən Muğannanın özündən razılıq əlaməti xarakterində özünü göstərmirdi. Müsahibələrinin birində nə ilə fəxr edirsiniz? Sualına qısaca belə cavab vermişdi: "Kainata az-çox bələdliyimlə" [15].

Yazıçı ədəbiyyatı, tarixi, dilçiliyi, sosiologiyanı, psixologiyanı və astronomiyanı yaxşı bilsədə, təkəbbürlü danışmır. Bu da onu göstərir ki, insan nə qədər bilsədə, yenə də oxumalı, öyrənməlidir, fikrini Muğanna əsas götürərək daima mütaliə etmişdir. Ədibin səmimiyyəti, yaradıcılığı qələm yoldaşlarının da ona münasibətində özünü göstərirdi. Xalq yazıçısı Elçin Azərbaycandan "Nobel" mükafatına layiq görülə biləcək yazıçılardan birinin İsa Muğanna olduğunu qeyd etmiş, ədiblə bağlı düşüncələrini bölüşərkən demişdir. "Özünü ədəbiyyat üfüqlərində doğan bir günəş adlandıran yazıçı İsa Hüseynov böyük mütəfəkkür, görkəmli dil və fikir ustası kimi yazdığı əsərlərlə daim ədəbiyyatımızda yaşayacaqdır" [7]. Xalq yazıçısı Elçinin söylədiyi bu fikir yazıçının şəxsiyyətinə, ümumən ədəbiyyata verilən dəyərdir.

İsa Muğanna bir müddət təkliyə, çəkilsə də bunun da ədəbiyyat üçün böyük faydası oldu. Həmin dönəmdə ədib ardıcıl "İdeal"dan sonrakı əsərləri qələmə aldı. İsa Muğannanın 80 illik yubileyi münasibəti ilə əsərlərin altı cildliyi nəşr olundu. Altı cildliyin təqdimatı zamanı uzun fasilədən sonra müəllif oxucuların görüşünə gəldi. Böyük qələm sahibi mətbuatdan və oxucularından bir müddət uzaq qalsa da, ona olan istək və rəğbət azalmamış, əksinə daha da çoxalmışdı. Təqdimat zamanı akademik Nizami Cəfərov demişdi ki, "İsa Muğannanın yaradıcılığını əhatə etmək üçün bu altı cild kifayət deyil. Muğannanın haradasa yazdığı kiçik bir cümlənin də ədəbiyyata dəxli var" [14].

## Nəticə

*Ədibin yazdığı əsərlər 80-ci illərə qədər ədəbi tənqidin haqlı-haqsız hədəfinə çevrilsə də, 80-ci illərdən ədəbi tənqidin susmasına məruz qalsa da, İsa Muğannanın şəxsiyyəti və yaradıcılığı bir qisim alim və ziyalı tərəfindən yüksək dəyərləndirilir və Muğannanın bədii nəsri Azərbaycan Ədəbiyyatında yeni hadisə kimi qəbul edilir. İsa Muğanna bütövlükdə ədəbiyyat adamı idi. Onu heç bir vəzifə, var-dövlət düşündürmürdü. O bütün həyatını ədəbiyyata bağlamışdı. Yazıçının şəxsiyyətində elmilik və bədiilik birləşmişdi.*

*İsa Muğannanın həyat kredosu həyat, mənəviyyat və ədəbiyyat idi. Ədib həyatdan zövq alıb mənəviyyatla yaşayıb, fikirlərini ədəbiyyatda əks etdirirdi. Ədəbiyyatda əks olunan fikirlər bu gün də Muğannanı oxucusuna yaxından tanıdır və onu yaşadır. İsa Muğannanı bir yazıçı kimi bu qədər mübariz edən ona qarşı olan hiddətlər və iradəsinin möhkəmliyi idi. Müsahibələrinin birində [16] yazıçı qeyd edirdi ki, "nə qədər yıxılsam, o qədər çox qalxıram".*

*Yazıçının bədii nəsri yaradıcılığı ilə bərabər şəxsiyyəti haqqında da müsbət fikir söyləməyə imkan verir.*

**Ədəbiyyat siyahısı:**


1. Anar. Qəribə dünyanın adamı / "Ədəbiyyat qəzeti", 30 may 2008-ci il.
2. Aslanov Aslan. "Məktub"// Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond № 67, siyahı № 2, iş № 156, vərəq – 1.
3. Cəbrayıllı Laura. 80 yaşdan yekun iyi gəlir / "Mədəniyyət" qəzeti, 14 iyun 2008.
4. Cəfərov Nizami. Yazıçıya məktub / "Ədəbiyyat qəzeti", 6 iyun 2008-ci il.
5. Əlibəyli Bəsti. Dilmancsız dialoq / "Azərbaycan" jurnalı, Bakı: 2008, № 6, s. 28-45.
6. Hacıyev Tofiq. Uzaq səfərlər kapitanı / "Ədəbiyyat qəzeti", 6 iyun 2008-ci il.
7. Muğanna İsa – 90 (metodik vəsait), Ağstafa rayon MKS Metodika və Biblioqrafiya şöbəsi // Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond № 67, siyahı № 2, iş № 170, vərəq – 1.
8. Muğanna Sevinc. Ucalar ağrımaz / "525-ci qəzet", 14 iyun 2008-ci il.
9. Sadiq Şəmil. İsa Muğanna ilə son söhbətim... Vicdan dinin hamısıdır / "Ədəbiyyat qəzeti", 18 aprel 2014-cü il
10. Səlimqızı Cəvahir. Bütün planetlər arasında yeganə doğuluş planeti yer kürəsidir / "525-ci qəzet", 12 noyabr 1998-ci il.
11. Süleymanlı Mövlud. Sabaha deyilən söz, "Yazıçı" oğuz eli jurnalının ayrıca buraxılışı, noyabr 2008, № 8 (122), s. 3
12. Şıxlı İsmayıl. Sənətkar möcüzəsi / "Ədəbiyyat və İncəsənət" qəzeti, 17 iyun 1988-ci il.
13. Ulutürk Xəlil Rza. "Kollu Koxa" və "Məhşər" romanı haqqında mülahizələr // Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond № 67, siyahı № 2, iş № 164, vərəq – 1.
14. Umudlu İsmayıl. "Kitabların və yazarların sərgiləndiyi gün" (İsa Muğanna da oxucuların qarşısına çıxmışdı) / Ayna, 12 sentyabr 2009-cu il.
15. Vüsal Barat. İsa Muğanna – Sonuncu: Ənəlhəq deyən kişi... / "525-ci qəzet", 12 iyun 2018-ci il.
16. Vüsal Barat. Ömrün əbədi dövrü / "525-ci qəzet", 12 iyun 2014-cü il.


**Ulvi Mikailov**

**Distinctive attitude to the phenomena of Isa Mughanna**


This article descibes the attitude to Isa Mughanna's personality and creativity as the main object of research. It is well known that Isa Mughanna's creativity is divided into the following two stages: the stage before and after the "Ideal". In the period before writing the novel "Ideal", the writer's work was subjected to various fair and unfair attacks of literary criticism and the period of creativity after writing "Ideal" was ignored by literary criticism.

The research also indicates that the Oder language and the Science of Safag were widely used by Mughanna in his novel "Ideal", where the author also describes the human ideas peculiar to him, but the researches did not evaluate Mughanna's crreativity too much. But along with this fact the number of intelligence and some scientists did not stay indifferent to Mughanna's creativity and highly appreciated his ideas. As an illustration of the appraisers of his works, we can mention such national poets as Bakhtiyar Vahabzadeh, Khalil Rza Uluturka, as well as such national writers as Anar, Elchin, Muvlud Suleymanli and Academicians Tofig Hajiyev, Nizami Jafarov and etc.

The significance of this research lies in the fact, that Isa Mughanna's creative development was not studied for a long period and philosophical (significant) ideas in the

writer's works mostly was not reflected in the literature studies. From this point of view Isa Mughanna's personality as well as his creativity, that make a whole with his personality, are the main object of this research and they were studied on the ground of his ideas, which he used in his works and interviews.

In the result it is worthy to note, that the writer's life was completely connected with literature, he widely used the national values, the destiny of nation and human ideas in his works. Isa Mughanna's philosophical ideas, that make a whole with literature, are phenomenon.

***Key words:*** *Isa Mughanna, personality, human thinking, national character, fictional prose, phenomena*

**Ульви Микаилов**

**Отличительное отношение к феномену Исы Муганны**

В статье, как основной объект исследования, рассматривается отношение к личности и творчеству Исы Муганны. Известно, что творчество Исы Муганны делится на следующие два этапа: период до «Идеала» и тот, что начался с «Идеалом». В период до написания романа «Идеал» творчество писателя подвергалось различным справедливым и несправедливым нападкам литературной критики, а период творчества после написания «Идеала» литературоведческая критика игнорировала.

Исследование также указывает на то, что язык ОдЕр и наука СафАга широко использовались Муганной в его романе «Идеал», где автор также описывает свойственные ему человеческие идеи. Однако исследователи не слишком высоко оценивают творчество Муганны. Но наряду с этим, ряд представителей интеллигенции и некоторые ученые - народные поэты Бахтияр Вахабзаде, Халил Рза Улутурк, а также народные писатели Анар, Эльчин, Мовлуд Сулейманлы и академики Тофиг Гаджиев, Низами Джафаров и др. не остались равнодушными к творчеству Муганны и высоко оценили его идеи.

Значимость данного исследования заключается в том, что творческое развитие Исы Муганны долгое время не изучалось, а философские (значимые) идеи в творчестве писателя практически не находили отражения в литературоведении.

С этой точки зрения личность Исы Муганны, а также его творчество, составляющие единое целое с его личностью, являются основным объектом данного исследования и изучались на основе его идей, которые он использовал в своих работах и интервью.

В итоге следует отметить, что жизнь писателя была полностью связана с литературой, в его произведениях широко отображались национальные ценности, судьба народа, человеческие идеи. Философские идеи Исы Муганны, составляющие единое целое с литературой, феноменальны.

***Ключевые слова:*** *Иса Муганны, личность, человеческое мышление, национальный характер, художественная проза, феномен*

Filologiya üzrə elmlər doktoru, professor
**Vaqif Sultanlı** tərəfindən çapa tövsiyə olunmuşdur.